# “İdrak” liseyi: innovativ təhsil müəssisəsi




Ölkəmizdə fəaliyyət göstərən bir sıra özəl orta ümumtəhsil müəssisələri var ki, bunlardan biri də “İdrak” liseyidir. Lisey 2008-ci ildə Sumqayıt Özəl Orta İxtisas Kollecinin nəzdində yaranıb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 17 iyun 2008-ci il tarixli, 760 saylı əmri və 031975 saylı lisenziyasına əsasən fəaliyyət göstərir. 2014-cü ildə valideynlərin istək və arzusu nəzərə alınaraq liseyin Bakı filialı açılıb. Bununla da “İdrak” liseyi hazırda həm Sumqayıt, həm də Bakı şəhərində fəaliyyət göstərir. Yarandığı gündən təhsil ictimaiyyətinin rəğbətini qazanan lisey qısa müddətdən sonra təhsilin keyfiyyətinə və qazandığı uğurlara görə böyük nüfuz qazanmışdır. “İdrak” liseyinin təsisçisi pedaqoji elmlər doktoru, professor, bir neçə elmi əsərin, çoxsaylı monoqrafiya, dərs və metodik vəsaitlərin müəllifi Mönsüm Alışovdur. İxtisasca riyaziyyatçı olan Mönsüm Alışov zamanın tələbinə çevrilmiş komputer texnikasının köməyi ilə şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması sahəsində elmi araşdırmalar aparmışdır. Elə yaratdığı liseyin adı da alimin bu yöndəki çalışmaları ilə bağlıdır. Liseyin fəaliyyətini tam əks etdirən və sagirdlərin faydalana biləcəyi gündəlik yenilənən “idrak.edu.az” adlı internet saytı vardır. 2012-ci ildən başlayaraq liseyin mətbuat orqanı olan “İdrak press” qəzeti nəşr olunur.











## Maddi-texniki baza

Liseyin həm Sumqayıt, həm də Bakı şəhərində müasir avadanlıqlarla təchiz olunmuş, son dərəcə yüksək səviyyəli maddi-texniki bazası olan tədris binaları var. Tədris binaları geniş və işıqlı sinif otaqları, idman zalları, şəbəkə blokuna qoşulmuş kompüter otaqları, kimya, fizika, biologiya laboratoriyaları, fənn və linqofon kabinetləri ilə təchiz olunub. Bundan başqa, süni ot örtüklü mini stadionlar, üzgüçülük hovuzları da şagirdlərin sağlam şəkildə inkişafına xidmət edir. Həmçinin liseylər müasir tipli qazanxana və istilik sistemləri, yeməkxanalar ilə təchiz olunub. Liseylərdə şagirdlərə və müəllimlərə xidmət edən yeməkxanalar da var ki, burada gün ərzində 3 dəfə isti yemək verilir.

Şagirdlərin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyə olunması liseylərin tərbiyə işinin özülünü təşkil edir. Bu müqəddəs məqsədə xidmət üçün liseylərin foyesində müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndərimiz Heydər Əliyevə və milli qəhrəmanlarımıza həsr olunmuş fotostendlər asılmışdır.

Liseylərdə tədris prosesində istifadə üçün ən son texnologiyalarla təchiz edilən İKT avadanlıqları mövcuddur. Belə ki, kompüter, noutbuk, ağıllı lövhə və proyektorlar müəllimlərin ixtiyarına verilib.

“İdrak” liseyinin kitabxanası həm bədii ədəbiyyatla, həm də dərsliklərlə təmin olunmuşdur. Bundan əlavə, məktəbdə yüksək tədris mühitinin yaradılması üçün və tədris prosesini canlandırmaq məqsədi daşıyan çoxlu sayda əyani vəsaitlər (şəkillər, xəritələr, elektron dərsliklər, kinolentlər və s.) mövcuddur.

Bununla yanaşı, tədris binalarında məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Qrup otaqları məktəbəqədər yaşlı uşaqların tədrisi, istirahəti və oyunları üçün lazımi avadanlıqla təchiz edilmişdir.

## Tədrisin təşkili

“İdrak” liseyinin nizamnaməsinə əsasən təlim-tərbiyə işləri Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş fərdi tədris planı əsasında həyata keçirilir. Tədris Azərbaycan, rus və ingilis dillərində aparılır. Tədris həftəsinin müddəti 5 gündür. Liseydə rəqs, rəsm, gimnastika, basketbol, tennis, futbol, üzgüçülük, bacarıqlı əllər, musiqi, karate, şahmat dərnəkləri fəaliyyət göstərir. Tədris ocağının I sinfinə qəbul şifahi sorğu yolu ilə xüsusi komissiya tərəfindən keçirilir. II-XI siniflərə qəbul yazılı test sorğusu əsasında aparılır. Qəbulda şagirdin potensial imkanlarının və fərdi psixoloji xüsusiyyətlərinin diaqnostikası diqqət mərkəzində saxlanılır. “İdrak” liseyində yalnız xüsusi istedadlıların deyil, hər bir şagirdin hərtərəfli şəxsiyyət kimi formalaşmasına xüsusi diqqətin yetirilməsi nəzərdə tutulmuşdur. Şagirdlərə fərdi yanaşma liseyin prioritet prinsiplərindən biridir. Bu prinsipə əsaslanaraq hər bir şagirdin inkişaf dinamikası daim izlənilir, potensial imkanları üzə çıxarılır və qarşıya müstəqil, mədəni, milli-mənəvi keyfiyyətlərə malik, məqsədyönlü savadlı bir vətəndaş yetişdirmək məqsədi qoyulur. “Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı” amalını əsas şüarı sayan liseydə yüksək hazırlıqlı müəllimlər çalışırlar. Bunun nəticəsidir ki, kollektiv uğurlarını ilbəil artırır. Liseyin pedaqoji kollektivi müsabiqə yolu ilə seçilmiş savadlı, istedadlı, təcrübəli və olduqca tələbkar müəllimlərdən təşkil olunmuşdur.

“Təhsil haqqında”qanuna uyğun olaraq, liseydə təhsil 4 pillədən ibarətdir:

*Məktəbəqədər hazırlıq pilləsi - 5 yaş*
*İbtidai təhsil pilləsi - I-IV siniflər*
*Ümumi orta təhsil pilləsi - V-IX siniflər*
*Tam orta təhsil pilləsi - X-XI siniflər*

Tədrisin hər dörd pilləsində şagird şəxsiyyətinin formalaşdırılması “Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsi”nə uyğun aparılır.

Liseyin I-VI siniflərində tədris prosesi ümumi əsaslarla, VII-XI siniflərdə isə təmayüllü siniflərdə aparılır. Müəllimlər dərslərdə texniki vasitələrdən, yeni təlim texnologiyalarından geniş istifadə edirlər. Müəllimlərin peşəkarlığını artırmaq məqsədilə vaxtaşırı İKT və fəal təlim kursları təşkil olunur, bu mövzuda diskussiyalar, “dəyirmi masa”lar, seminarlar, “açıq dərs”lər, bilik yarışları keçirilir.

Hər il liseydə pedaqoji universitetləri bitirmiş gənc kadrlar 3 mərhələli müsabiqə yolu ilə kurator-müəllim kimi işə qəbul edilirlər. Onların yetişdirilməsi istiqamətində hərtərəfli iş aparılır. Tədris ili boyu gənc kadrlar təcrübəli müəllimlərin dərslərini dinləyir, onların təşkil etdiyi seminar və təlimlərdə iştirak edirlər.

## Nailiyyətlər

Fəaliyyət göstərdiyi dövrdən başlayaraq böyük uğurlara imza atan liseyin müəllim-şagird kollektivi bir çox müvəffəqiyyətlər əldə etmişdir. Liseyin şagirdləri respublika daxilində keçirilən bir sıra tədbirlərdə iştirak etmiş və nailiyyətlər qazanmışlar. Belə ki, təhsil ocağı 2009-cu ildə Sumqayıt şəhərində keçirilmiş “Gənc informatiklər” müsabiqəsində xüsusi mükafata layiq görülmüşdür. Bundan başqa, şagirdlər 2009-2010-cu tədris ilində Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin dəstəyi ilə Bakı şəhərində keçirilən “SPARE - enerji və ətraf mühitin qorunması” müsabiqəsində uğurla iştirak etmiş, diplom və hədiyyələr qazanmışlar. Liseyin şagirdləri 2010-2012-ci illər ərzində İNEPO EUROASİYA (Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Layihəsi) olimpiadasında iştirak edərək bir qızıl və iki bürünc medala layiq görülmüşlər.

2010-2012-ci illərdə Sumqayıt şəhəri üzrə keçirilmiş “Ana dili” müsabiqəsində liseyin şagirdləri II və III yerləri qazanmışlar. 2010-2011-ci tədris ilində isə Sumqayıt şəhər fənn olimpiadasında riyaziyyat və biologiya fənləri üzrə I yerə, xarici dil üzrə isə II yerə, 2011-2012-ci tədris ilində Azərbaycan dili üzrə I yerə, 2012-2013-cü tədris ilində Azərbaycan dili üzrə I yerə, biologiya üzrə II yerə, 2013-2014-cü tədris ilində isə tarix fənni üzrə I yerə layiq görülmüşlər.

2010-2015-ci illər ərzində “İdrak” liseyinin 24 nəfər məzunu olmuşdur. Məzunlardan 5 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinə, 3 nəfəri Bakı Dövlət Universitetinə, 3 nəfəri Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə, 1 nəfər Azərbaycan Dillər Universitetinə,1 nəfər Bakı Slavyan Universitetinə, 1 nəfər Azərbaycan Dövlət Pedaqoji Universitetinə, 1 nəfər Qərb Universitetinə, 1 nəfər Biznes Kooperasiya Kollecinə, 1 nəfər isə 608 bal toplayaraq Qafqaz Universitetinə daxil olmuşlar. 5 nəfər məzun isə Amerika və Türkiyənin ali təhsil müəssisələrində təhsil alır.

Rəsm dərnəyində çalışan gənc istedadlar bir çox rəsm sərgilərində iştirak edərək yüksək nəticələr göstərmişlər. Belə şagirdlərdən Fidan Niftəliyeva və Nərmin İsmayılovanın liseydə fərdi rəsm sərgiləri keçirilmişdir. Şagirdlər liseydə keçirilən bir çox rəsm müsabiqələrində qalib olub, müxtəlif diplom və medallara layiq görülüblər.

Liseyin uğurlarının memarı şübhəsiz ki, daim öz üzərlərində çalışan, yenilik axtaran pedaqoji kollektividir. Müəllimlərdən fəlsəfə doktoru, “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi, müxtəlif müvəffəqiyyətlər qazananları çoxdur. Belə ki, liseyin 30-dan çox müəllimi “Ümumi orta təhsil səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi” kursundan keçmiş və təlimçi kimi yetişmişlər. Lisey 2012-ci ildə fənlər üzrə aparılan tenderdə iştirak edərək Gəncə - Qazax, Abşeron - Dağlıq Şirvan və Lənkəran iqtisadi rayonlarında 7 fənn üzrə təlimləri aparmaq hüququ qazanmışdır. 2012-ci ilin iyun-sentyabr aylarında “İdrak” liseyinin təlimçiləri göstərilən iqtisadi rayonlarda xarici dil, fiziki tərbiyə, riyaziyyat, ədəbiyyat, ana dili və Azərbaycan dili, texnologiya, təsviri incəsənət və musiqi fənləri üzrə təlimləri 4 mərhələdə, 27 təlim mərkəzində, 241 qrupda aparmış, 6006 nəfər iştirakçı müvafiq sertifikatlar almışdır. 2013-cü ildə isə Aran və Lənkəran iqtisadi rayonlarına xarici dil və fiziki tərbiyə fənləri üzrə təlimləri aparmaq hüququ qazanmışdır. Aran və Lənkəran iqtisadi rayonlarına 24 rayon daxildir. Təlimlər 4 mərhələdə 23 təlim mərkəzində 133 qrupda aparılmış, 3303 nəfər iştirakçı müvafiq sertifikatlar almışdır.

Tapşırığı səmərəli və keyfiyyətli yerinə yetirmək üçün liseydə 15 nəfərdən ibarət işçi qrupu yaradılmışdır. İşçi qrupu proqramın reallaşdırılması üçün təşkilati məsələlərin həlli, təlim məntəqələrində təlimçilərin fəaliyyət göstərməsinə və yerləşdirilməsinə yaradılan şəraitlə və digər məsələlərlə tanış olaraq, vəziyyətlə bağlı sifarişçi təşkilatı məlumatlandırmışdır.

## Keçirilən tədbirlər

Tədris ocağında mütəmadi olaraq əlamətdar günlər və ildönümlərlə bağlı tədbirlər keçirilir. Buna misal olaraq 9 Noyabr Dövlət bayrağı gününə həsr olunmuş və 2015-2016-cı tədris ilində “İdrak” liseyi Bakı filialına götürülən şagirdlərin “İdrak”çılar sırasına qəbul olunma mərasimini göstərmək olar. Tədbirdə şagirdlər “İdrakçılar” andına sadiq qalacaqlarına söz verdilər və and içdikdən sonra “İdrak” liseyinin rəmzi olan qalstuklar Mönsüm Alışov tərəfindən boyunlarına taxılıb. Bundan başqa, ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş “Heydər Əliyev məktəblilərin gözü ilə” adlı tədbir keçirilib. Tədbirdə şagirdlərin hazırladıqları “Heydər babamız”, “Heydər Əliyev və Azərbaycan dili”, “Heydər Əliyev sənətkarlarla”, “Heydər Əliyev qeyri-rəsmi”, “Heydər Əliyev və müasir Azərbaycan tarixi”, “Heydər Əliyevlə vida” adlı təqdimatlar diqqət və maraqla qarşılanmışdır. Heydər Əliyevə həsr olunmuş mahnılar səsləndirilmişdir. Həmçinin ümummilli lider Heydər Əliyevə həsr olunmuş “ən yaxşı sinif divar qəzeti”, şeir müsabiqəsi, inşa müsabiqəsi keçirilmişdir. Şagirdlər ulu öndər Heydər Əliyevin məzarını da ziyarət ediblər.

Liseydə vaxtaşırı incəsənət adamları, musiqiçilər, şair və yazıçılarla da görüşlər təşkil edilir. 10 fevral 2016-cı ildə liseydə Akademik Milli Dram Teatrında Abdulla Şaiqin “Qaraca qız” hekayəsinin motivləri əsasında səhnələşdirilmiş “Qaraca qız” tamaşasında iştirak edən və sevə-sevə izlədikləri sevimli aktyorlarla görüş keçirilib. Şagirdlər izlədikləri tamaşa haqqında verdikləri sualları aktyorlar böyük həvəslə cavablandırıblar. Bundan başqa, 1 mart 2016-cı ildə “İdrak” liseyinin qonağı hamının sevimlisi, xalq şairi Nəriman Həsənzadə olub. Tədbirdə şagirdlər Nəriman Həsənzadəyə həyatı və əsərləri ilə bağlı suallar veriblər.

Liseydə şagirdlər asudə vaxtlarını müxtəlif yerlərə ekskursiya etməklə keçirirlər. Bu mənada Azərbaycan Dövlət Tarix Muzeyi, Xalça muzeyi, Geologiya muzeyi, Açıq səma altında Qala muzey kompleksinə, “Azərcosmosa”, Gazelli fabrikinə, Milli Olimpiya stadionuna ekskursiyalar ediblər və dəfələrlə Akademik Milli Dram Teatrında tamaşalarına kollektiv baxış onlar üçün unudulmaz xatirəyə çevrilmişdir. Ekskursiyalar şagirdlərin asudə vaxtlarının səmərəli keçirilməsində müstəsna əhəmiyyət daşıyır.

Tətillərini səmərəli keçirmək, ingilis dilini təkmilləşdirmək və dünyagörüşlərini artırmaq məqsədilə şagirdlər üçün Londona, Paris və digər Avropa ölkələrinin şəhərlərinə gəzintilər təşkil olunur.

**Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*